UOT 75.

**Aygül Tofiq qızı**
**Bakı Xoreoqrafiya Akademiyası**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**E-mail:aygul-@bk.ru**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RƏSSAMLIQ SƏNƏTİ

**Xülasə**: H.Əliyev fenomenal bir şəxsiyyət, böyük mədəniyyət hamisi idi. Onun rəssamlıq və rəssamlar barəsində söylədikləri böyük fəlsəfi-estetik mahiyyət daşıyan, milli rəssamlıq sənətinin təkamülünə xidmət edən böyük ideyalar idi.

H.Əliyev Azərbaycan mədəniyyəti və incəsənəti, xüsusilə rəssamlıq sənətimizlə qürur hissi keçirir, rəssamlarımızın Avropa və dünya arenasına çıxmasını böyük vətəndaşlıq duyğusu və iftixarla qeyd edirdi.

**Açar sözlər**: H.Əliyev, Azərbaycan, mədəniyyət, incəsənət, rəssamlıq, tarixi şəxsiyyət

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin nəzəri irsi bizim milli sərvətimizdir. O, ölkəmizə rəhbərlik etdiyi 30 ildən artıq bir dövr ərzində böyük sənaye və kənd təsərrüfatı, şəhərsalma və dövlətçilik sahələri ilə bərabər ictimai-humanitar fikrin inkişafı sahəsində də Azərbaycanı dünya elmi-fəlsəfi fikri səviyyəsinə qaldıran cahanşümul işlər görmüşdür. Həyatda baş verən proseslərin mürəkkəbliyinə, iqtisadi problemlərin ağır təzyiqinə baxmayaraq H.Əliyev milli-mədəni məsələlərin həllinə xüsusi önəm verirdi. Dahi Azərbaycan şairi M.Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının 1 avqust 1994-cü il tarixli birinci iclasındakı giriş sözündə ulu öndər demişdir:

«Respublikamızın bu ağır dövründə böyük yubileylər keçirilməsi, şübhəsiz ki, müəyyən qədər çətinliklərlə üzləşəcək. Ancaq bunlara baxmayaraq, həyatımızın mənəvi-mədəni sahəsi heç vaxt unudulmamalıdır, Çətinliklər nə qədər çox olsa da, mədəniyyətə, mədəni irsimizə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik» (Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, “Ozan”, 1999, s.201)

Beləliklə də mədəniyyət və incəsənət problemi H.Əliyev üçün ümumdövlət işinin ayırılmaz tərkib hissəsi idi. Ulu öndərin, ümumiyyətlə, bu unikal sahələrə münasibəti təsadüfi olmayıb konseptual nəzəri-metodoloji əsaslara malik bir nəzəriyyə idi. Onun teatr, kino, musiqi və rəssamlıq sənətlərinə münasibətinin də guşə daşında məhz bədii irsə münasibətlə bağlı metodoloji görüşləri dayanır. Onun bu baxımdan önəmli bir fikrini misal gətirək:

“Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərinə baxmayaraq biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə aça bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir” (Kitabi- Dədə Qorqud ensiklopediyası. I c., Bakı 2000, s.6). Beləliklə də, tarixilik və müasirliyin üzvi vəhdəti H.Əliyevin sənət konsepsiyası üçün başlıca şərtdir.

Qədim və zəngin ənənələrə malik rəngkarlıq sənətimizin də kökləri Azərbaycan xalqının mifik təfəkkürü, əski inanclarımızla bağlıdır. Azərbaycan rəssamlığının tarixini və inkişaf mərhələlərini, çağdaş rəssamlığımızın bədii-estetik uğurlarını müştərək türk mifindən, İslam təfəkküründən ayırıb təhlil etmək, dəyərləndirmək olmaz.

Heydər Əliyev bütün yaradıcılıq sahələrinə – teatr, kino, musiqi və rəssamlıq sənətinə də tarixilik və müasirlik müstəvisində nəzər salırdı. 1994-cü il dekabrın 17-də böyük rəsam Səttar Bəhlulzadənin anadan olmasının 85 illiyi münasibəti ilə Azərbaycan Milli İncəsənət Muzeyində açılmış böyük sərgidəki nitqində H.Əliyev demişdir:

“Azərbaycan xalqının mədəniyyəti böyük tarixə malikdir. Qədim əsrlərdə xalqımızın yaratdığı rəssamlıq sənəti, miniatür sənəti, Sultan Məhəmmədin miniatür məktəbi, bundan sonrakı dövrlərdə Azərbaycan rəssamlarının, Azərbaycan memarlarının yaratdıqları əsərlər xalqımızın mədəni-mənəvi irsidir” (Heydər Əliyev. Mədəni irsimizin keşiyində. II kitab. Bakı, 2001, s.430. Qeyd: Səhifəsi göstərilən sitatlar bu kitabdan verilir). Beləliklə də tarixilik prinsipi H.Əliyevin sənət nzəriyyəsinin metodoloji əsasında dayanır. O, sənətin tarixinə də estetik mahiyyətinə də həyat tarixindən, cəmiyyət tarixindən ayrılmadan dəyər verir. H.Əliyevin XX əsrin böyük rəssamı Səttar Bəhlulzadənin ecazkar sənətinə münasibətində də tarixilik və müasirlik, küllən novatorluq ön plana keçir: “Səttar Bəhlulzadə yaradıcılığının özünəməxsus xüsusiyyəti var. Həmin xüsusiyyət onun əsərlərində aydın görünür. Bu qeyri adilik onun daxili fəlsəfi aləmi ilə, onun dünyagörüşü və fitri istedadı ilə bağlıdır. Şübhəsiz ki, belə əsərlər yarada bilən adam, o dövrdə klassik üslubdan kənara çıxıb öz yolu ilə gedən, öz rəssamlıq məktəbini yaradan bir insan həm öz şəxsiyyətinə görə adi deyil, həm sənətkarlığına görə adi deyil, həm də yaradıcılığına görə adi deyil. Çox qeyri-adi bir insandır, rəssamdır, mədəniyyət xadimidir. Ona görə də bizim rəngarəng mədəniyyətimizdə, o cümlədən rəssamlıq məktəbimizdə Səttar Bəhlulzadə yaradıcılığı ilə yeni bir səhifə, yeni bir yol, yeni bir üslub açılıbdır. Bu rəsam illər boyu yaşayacaq və heç şübhə

etmirəm ki, zaman keçdikcə Səttar Bəhlulzadənin yaradıcılığı daha da yüksəklərə qalxacaq, onun əsərlərinin qiyməti daha da artacaqdır" (s.430).

H.Əliyev Səttar Bəhlulzadənin misilsiz sənətini bədii-tarixi ənənələr kontekstində qiymətləndirməklə bərabər, həm də onun dünya əhəmiyyətini göstərirdi. Ümumiyyətlə, kontekstoloji yanaşma onun nəzəri irsinin, o cümlədən zəngin rəssamlıq sənətimizə verdiyi dəyərin əsasında durur. Bu isə ümummilli liderin fikir və mülahizələrinə nəzəri dolğunluq, inandırıcılıq gətirir. Belə bir tutarlı qənaətə diqqət yetirək: "XX əsr Azərbaycan xalqının mədəni həyatında böyük hadisələr dövrü olubdur. XX əsrdə mədəniyyətimiz bütün sahələrdə sürətlə inkişaf edib, dünya mədəniyyətinə böyük simalar bəxş edib. Onların arasında rəssamlıq sahəsində Səttar Bəhlulzadənin xüsusi yeri var. O, nəinki Azərbaycan həm də bütün dünya mədəniyyəti üçün, dünya rəssamlıq sənəti üçün görkəmli bir rəssamdır və böyük mədəni irs qoymuşdur. Azərbaycan xalqı belə bir şəxsiyyəti ilə, belə bir insanla fəxr edir və bundan sonra da fəxr edəcəkdir" (s.434). Bu sözləri H.Əliyev dahi rəssamın yubiley mərasimində söyləmişdir. Burada Ulu öndər bir məsələyə də diqqəti cəlb edir. O, heç zaman sənətkarın yaradıcılığını şəxsiyyətindən ayırmır. Şəxsiyyətlə yaradıcılığın vəhdəti sənətin tükənməz enerji mənbəyidir. Məhz buna əsaslanaraq H.Əliyev qeyd edir ki, "onun yaratdıqları adi rəsm əsərləri deyildir". Qeyri-adiliyi isə o, hər şeydən öncə S.Bəhlulzadənin qeyri-adi şəxsiyyətində, fitri istedadının qüdrətində görürdü. Ümummilli lider səmimiyyət və vəcdlə demişdir: "Onun özünəməxsus aləmi var idi. O, bir insan kimi fəlsəfəyə bağlı adam idi. Ona görə də Səttar Bəhlulzadənin yaratdığı əsərlər, onun həyatı, rəssamın daxili dünyasının nümayişidir...

O, qeyri-adi bir insan idi. Qeyri-adiliyini öz əsərləri ilə hamıya nümayiş etdiribdir. Rəssamı tanımayan adamlar da onun orijinallığını, novatorluğunu öz gözləri ilə görmüşlər… O, bir insan kimi də əzmkar və fədakar, sənətini çox sevən və bütün həyatını öz sənətinə həsr edən adam idi. Bu insan heç vaxt şan-şöhrət, ad, mükafat dalınca getməmişdir. Belə şeylər onu heç vaxt maraqlandırmamışdır. Buna görə onun həyatı da çox sadə və təvazökar olmuşdur. Bəlkə də onun şəxsi həyatı, yaşayışı çox çətin keçmişdir - mən bunları da bilirəm. Ancaq bununla bərabər, onun daxili aləmi, mənəviyyatı, yaratdığı əsərlər o qədər böyükdür ki, bunlar Səttar Bəhlulzadəni bizə böyük bir sima kimi tanıdıbdır və gələcəkdə də tanıdacaqdır" (s.436). Əslində bu məntiqli fikirlərə diqqət yetirilsə görmək çətin deyil ki, H.Əliyev dahiyanə bir fəhmlə S.Bəhlulzadənin dahi bir rəsam olaraq portretini yaradır. Yüksək nəzəri-intellektual səviyyə, dərin fəlsəfi məzmun, zəngin müşahidə və ən əsası rəssamlıq sənətinin sirlərinə bələdlik H.Əliyevin sənət konsepsiyasnı səciyyələndirir.

Ulu öndər zaman-zaman XX əsr Azərbaycan milli rəssamlıq məktəbinin görkəmli nümayəndələrinin yaradıcılığı haqqında dəyərli fikirlər söyləmiş, onlar-

la görüşüb ünsiyyət saxlamışdır. Tahir Salahov, Toğrul Nərimanbəyov, Elmira Şahtaxtinskaya, Oqtay Sadıqzadə, Maral Rəhmanzadə… onun sənətkar kimi yüksək dəyərləndirdiyi şəxsiyyətlər idilər. Ulu öndərin portretini işləmiş dünya şöhrətli rəssam Tahir Salahov onun yüksək qiymətləndirdiyi qüdrətli sənətkarlardan idi. 1995-ci il mayın 21-də H.Əliyev onu qəbul etmiş və demişdir: "Bizim səninlə münasibətlərimizin böyük, on illərlə tarixi var və çox vacibdir ki, bu münasibətlər heç bir şəraitdə kəsilməmişdir.

Biz səninlə tanış olduğumuz vaxtdan bəri mən sənə, sənin yaradıcılığına həmişə böyük hörmətlə yanaşmışam, səni burada da, Moskvada da dəstəkləmişəm, ona görə ki, sən mədəniyyət və incəsənət, o cümlədən də Azərbaycan mədəniyyəti və incəsənəti üçün çox işlər görürsən" (s.442).

Heydər Əliyev bütün sənətkarlara, xüsusən də "Azərbaycan milli rəssamı olaraq, bütün dünyada böyük rəngkarlıq, təsviri sənət ustası kimi məşhur" olan T.Salahova xüsusi həssaslıqla yanaşır və ona qayğı göstərirdi.

Öz-özlüyündə rəssamlıq unikal bir sənətdir. Rənglərin dilini bilmək, ruhi aləminə daxil olmaq hər adama nəsib olan səadət deyil. Kətan üzərində möcüzə yaratmaq üçün özün də bir möcüzəyə çevrilirsən. Bəs rənglərin musiqisini duymaq? Bu artıq ikiqat möcüzədir. Dünya şöhrətli rəssam və müğənni Toğrul Nərimanbəyov belə nadir sənətkarlardan biri, möcüzə adlanır.

1998-ci il mayın 12-də Azərbaycan Dövlət Opera və Balet Teatrında rəssam və müğənni Toğrul Nərimanbəyovun yaradıcılıq gecəsində iştirak etdikdən sonra H.Əliyev ona demişdir: "Mən sənin konsertindən çox məmnun oldum. Eyni zamanda həm isteadlı rəssam, həm də istedadlı müğənni olmaq fitri vergiyə malik insana xas cəhətdir. Sən bu gün gözəl oxudun, səni səmimi qəlbdən təbrik edirəm. Səni qırx ildir tanıyıram, sən hələ gənclik illərində özünü vokal sənətində də sınamısan" (s.446).

Toğrul Nərimanbəyov rəngin səsini və səsin rəngini tapan və duyan bir sənətkardır. Bu il, yəni 2010-cu ildə bu əvəzsiz sənətkarın anadan olmasının 80 illiyi tamam olur. T.Nərimanbəyovun "Narlar" əsəri XX əsr milli rəssamlığımızın şedevrlərindən biridir. Bu əsərdə rənglərin simfoniyası səslənir. Azərbaycanda məşhur bir tapmaca var: "Hacılara Haca gedər // Gündüzü qoyub gecə gedər// Bir yumurtanın içində // Qırx min cücə gedər". Bu tapmacanın cavabı "Nar"dır. T.Nərimanbəyovun "Narlar»" əsəri 40 min səsli bir rəngdir, rəngin və musiqinin – səsin ilahi istedadla vəhdətindən yaranmış sənət möcüzəsidir.

H.Əliyev görkəmli Azərbaycan rəssamları Elmira Şahtaxtinskayanı və Oqtay Sadıqzadəni 28 avqust 1998-ci ildə qəbul etmiş və onlarla səmimi söhbətində onların sənətinə yüksək qiymət vermişdir.

Bu görüşdə Ulu öndər hər iki rəssama belə demişdi: "Siz böyük bir rəssamsınız, çox işlər görürsünüz. Azərbaycanın rəssamlıq sənətini inkişaf etdirirsiniz.

Dediyim kimi, Elmira xanım Şahtaxtinskaya da çox böyük əsərlər yaradıbdır… Ona görə sizin sənətiniz, yaradıcılığınız çox qiymətlidir. Bunları nəzərə alaraq mən sizi ordenlə təltif edirəm" (s.449).

H.Əliyev həm mədəni irsin yaranmasına, həm də onun qorunub təbliğ olunmasına xüsusi qayğı ilə yanaşırdı. Məsələn, o, muzeylərin vəzifəsini təkcə tarix, ədəbiyyat və incəsənət əsərlərini əşya kimi mühafizə etməklə bitmiş hesab etmir, tələb edirdi ki, muzeydə canlı həyat olsun, müxtəlif dövrlərin sənət əsərləri hər gələn nəslin nəfəsi ilə təravətlənsin. Dünya muzeyləri ilə əlaqələrin, sərgi mübadilələrinin aparılmasına xüsusi bir önəm verirdi. Həqiqətən də, məsələn, rəssamlıq əsərləri muzeylərə yalnız qorunub saxlanılmaq üçün verilmir, burada onun əsl həyatı başlanır.

1996-cı il avqustun 3-də Azərbaycan Milli İncəsənət Muzeyində Xalq rəssamı Maral Rəhmanzadənin 80 illiyinə həsr olunmuş sərgidəki çıxışında H.Əliyev bu rəssam xanım haqqında demişdir: "Həyatınız boyu yaratdığınız əsərlər Azərbaycan təsviri sənətinin zənginləşməsində və Azərbaycan mədəniyyətinin, incəsənətinin inkişafında böyük rol oynayıbdır. Bu xidmətlərinizə görə xalqımız, millətimiz də Sizə minnətdardır…

Əminəm ki, Azərbaycan vətəndaşları Sizin sərginizə böyük həvəslə gələcək, əsərlərinizi bir daha görəcək və bunlardan estetik zövq alacaq, mənəviyyatca yüksələcəklər" (s.454).

İkinci salonda Maral Rəhmanzadənin Naxçıvan silsiləsinə baxdıqdan sonra H.Əliyev məmnunluq hissi ilə aşağıdakı sözləri söyləmişdi: "Mən o qədər də bilmirdim ki, Siz Naxçıvanın təbiətini belə gözəl əks etdirmisiniz. Ora həqiqətən möcüzəli bir yerdir. Bilirsiniz, oradakı dağların səhər bir rəngi olur, günorta rəng dəyişir. Qəribə bir şeydir. Məsələn, dağlara, daşlara uzaqdan baxırsan, biri göy, biri yaşıldır, digəri narıncı rəngdədir. Qəribə rəngləri var. Siz ki, oraya getmişsiniz, onları öz əsərlərinizdə əks etdirmisiniz, bu, çox gözəldir. Çünki Naxçıvan elə bir yerdir ki, oraya gedib gəlmək də çətindir, ona görə oraları görən də azdır. Xınalığı da çəkmisiniz, bu da çox gözəldir. Çünki Azərbaycanın elə guşələri var ki, bunlar abidədir. Bir tərəfdən təbiət abidəsidir, ikinci tərəfdən də insanların dağlar qoynunda yaratdıqları evlər, yaşayış yerləri – bunlar da abidədir. Xınaıq da Azərbaycanın bir abidəsidir, nadir bir yerdir" (s.456). Bu sətirlərdə təkcə rəssamlıq sənətimizə deyil, ümumən Azərbaycana, onun varlığına, daşına, torpağına dərin məhəbbət ifadə olunur. H.Əliyevin bu məhəbbət dolu vətənpərvəranə sətirlərini oxuyanda onun çox sevdiyi Xalq şairi Məmməd Arazın ibrətli misraları yada düşür:

*Bir qayaya söykənmişəm, deyirəm kaş*
*Bax beləcə daşa dönəm yavaş-yavaş*
*Onda vətən sanar məni*
*Bir balaca vətən daşı,*
*Vətən daşı olmayandan*
*Olmaz ölkə vətəndaşı.*

1998-ci il may ayının 15-də Azərbaycan Milli İncəsənət Muzeyində Heydər Əliyevin və Zərifə xanım Əliyevanın bənzərsiz portretlərini böyük istedad və məharətlə yaratmış rus rəssamı Nikas Safronovun sərgisi keçirilmiş və bu sərgidə ümummilli lider nitq söyləmişdir. Sərgini mədəni hadisə hesab edən H.Əliyev rus rəssamı haqqında demişdir: "Həqiqətən rəssam Nikas Safronovun adı çox istedadlı, özgür, orijinal bir rəssam kimi qısa vaxtda bütün dünyada məşhur olmuşdur. O, qısa dövr ərzində bir çox yüksək dəyərli təsviri sənət əsərləri yaratmışdır. Buna görə də rəssam Nikas Safronovun Azərbaycana diqqət yetirməsi və öz rəsmlərini Azərbaycanda nümayiş etdirmək arzusu respublikamıza, ölkəmizə, xalqımıza diqqət göstərilməsi deməkdir. Azərbaycan xalqı isə, ümumiyyətlə, incəsənəti, xüsusən də təsviri sənəti qiymətləndirir. Azərbaycanda bir çox görkəmli rəssamlarımız var, onlar öz rəsm əsərləri sayəsində dünya şöhrəti qazanmışlar" (s.461).

H.Əliyev Azərbaycan mədəniyyəti və incəsənəti, xüsusilə rəssamlıq sənətimizlə qürur hissi keçirir, rəssamlarımızın Avropa və dünya arenasına çıxmasını böyük vətəndaşlıq duyğusu və iftixarla qeyd edirdi.

XX əsr Azərbaycan rəssamlığında, memarlıq və heykəltəraşlığında Şərq bədii təfəkkür tərzi ilə Avropa bədii formaları vəhdətdə ifadə olunur. Bu da XIX əsrin ortalarından etibarən, ümumiyyətlə, mədəniyyətdə, ədəbiyyat və incəsənətdə Şərq-Qərb dəyərlərinin sintezi ilə bağlı bir tendensiya idi. Doğrudur, 70 illik sovet dönəmində (1920-1990) bədii yaradıcılığa ideoloji təsir (və təzyiq) metodu olan sosializm realizmi nəzəriyyəsi məzmunca sosialist, formaca milli mədəniyyət konsepsiyası adı altında bir qədər zərər vurdu, bədii yaradıcılığı siyasiləşdirdi. Lakin məhz bədii yaradıcılıq sahəsində ənənələrin mühafizəkarlığı sayəsində milli müəyyənlik hissi itmədi. Rəssamlıq sənətinin timsalında bu cəhəti H.Əliyev həmişə qeyd edir: "Azərbaycan rəngkarlıq, təsviri sənət məktəbi dünyada layiqli yer tutmuşdur. Biz bununla fəxr edirik. Biz fəxr edirik ki, tarixən qısa bir vaxtda Azərbaycanda gözəl, güclü təsviri sənət məktəbi, rəngkarlıq məktəbi təşəkkül taparaq yaranmışdır.

Azərbaycan qədim mədəniyyət ölkəsidir. Azərbaycan xalqı dünya sivilizasiyasına bir çox olduqca qiymətli mədəniyyət əsərləri, memarlıq, sənət abidələri, olduqca dəyərli təsviri sənət əsərləri bəxş etmişdir. Lakin keçmişdə, uzaq keçmiş-

də Azərbaycan təsviri sənəti öz ifadəsini özgün, milli sənətdə, miniatür sənətində tapmışdır. Buna görə də fəxr edirik ki, Azərbaycan xalqı təsviri sənətdə öz yoluna, öz dəst-xəttinə malikdir… Lakin bununla bərabər biz şadıq ki, Azərbaycan rəssamları Avropa rəngkarlıq məktəbinə də yaxınlaşmışlar” (s.461).

H.Əliyev rəssamlara bu sənət barədə heyrətamiz bir vurğunluqla danışır, hər dəfə rəngkarlıq tariximizə üz tutaraq miniatür sənətinin dahisi Sultan Məhəmmədin adına müraciət edir və bundan qürur duyduğunu gizlətmirdi.

H.Əliyev rəssamlıq sənətinin tarixi ilə bərabər onun estetik mahiyyətinə də müdaxilə edir, öz çıxışlarında obrazlı formanın poetik özəlliklərindən də bəhs edirdi. Qeyd edək ki, ümumiyyətlə o, obrazı sənət əsərinin başlıca xüsusiyyəti kimi ön plana çəkirdi. Həyatda ona çox doğma olmuş bir insan, sevimli həyat yoldaşı, akademik Zərifə Əliyevanın portreti ilə bağlı rus rəssamı Nikas Safronovla söhbətində o, belə demişdi:

“Bəri başdan deyim ki, Siz yaxşı portret çəkmisiniz. Ona görə yaxşı deyirəm ki, şübhəsiz insan yaşa dolduqca dəyişir. Zərifə xanım da dünyasını dəyişməzdən bir neçə il əvvəl təxminən belə görünürdü. Bir sözlə, Siz bu məqamı həssaslıqla tutmusunuz. Lakin ən başlıcası büdür ki, Siz onun xarakterini canlandırmağa müvəffəq olmusunuz. Tam oxşarlıq var. Özü də məsələ təkcə oxşarlıqda deyil, obrazdadır. Siz onun obrazını çox yaxşı təsvir etmisiniz” (s.467).

“«Məsələ oxşarlıqda deyil, obrazdadır” – bu, olduqca perspektivli tezisdir. Əslində sənət, xüsusilə poeziya, musiqi və rəsm əsəri öncə obrazı tapmaqdan başlanır. Obraz hər cür sənətin əsasında dayanan birləşdirici, toplayıcı qüvvədir. Obrazlılıq sənətin təfəkkür üsuludur. Sənət obrazlarla düşünür. Obraz daha çox daxili aləmin ifadəsidir. Sənətkar daxili aləmə obrazın zahiri təsvirindən daxil olur. Ümumiyyətlə, zahirlə daxilin vəhdəti obrazın bütövlüyü üçün başlıca şərtdir. Rəssamlıqda obraz rənglərin simfoniyasından yaranır. Sənət əsəri obrazın adı ilə adlanır.

H.Əliyev qlobal siyasət adamı idi. Müasir qloballaşan dünyanın lideri kimi bütün ölkələrdə tanınmışdı. O, regional düşüncəni qəbul etmir və mədəniyyətə də bu nöqteyi-nəzərdən yanaşırdı. Bu dahi şəxsiyyət mədəniyyətdə milliliyə böyük önəm verir, bununla bərabər mədəniyyətdə ideyanın bəşəriliyini hər şeydən üstün tuturdu. H.Əliyev ictimai və humanitar fikrin bütün sahələrinə, o cümlədən, ədəbiyyata, mədəniyyətə, incəsənətin teatr, musiqi, kino, rəssamlıq kimi sahələrinə – dövlət ideologiyasının – Azərbaycançılığın ideya mənbəyi, məxəzi kimi yanaşırdı. H.Əliyevin bu fəlsəfi təlimindən bəhs edərkən akademik Ramiz Mehdiyev yazır: “Azərbaycançılıq” - xalqımızın çox əzab- əziyyətlə nail olduğu tarixi sərvətdir. O, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Bu gün, “azərbaycançılıq” milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün

millətlərin və etnik qrupların qardaşlığı, qarşılıqlı əlaqə və təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycanın bütövlüyü uğrunda birgə mübarizəsinin tarixi təcrübəsidir" (Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi-Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2002, s. 10). Akademik R.Mehdiyevin bu qənaətləri kontekstində H.Əliyevin mədəniyyət, incəsənət konsepsiyası daha parlaq görünür. H.Əliyev elə bir tarixi şəxsiyyət idi ki, o çox vaxt zamanla hesablaşmır, öz zamanını yaradırdı. Onun uzaqgörənliyi haqqında ən obyektiv-tarixi fikri, onu hamıdan yaxşı tanıyan insan-Azərbaycan Respublikasının prezidenti İlham Əliyev söyləyib. Hələ 2001-ci ildə o, H.Əliyev siyasətinin tarixi, ədəbi-mədəni əhəmiyyəti barəsində yazırdı: "Azərbaycan rəhbərliyinin apardığı siyasət yeganə düzgün siyasətdir. Bunu həyat da sübut etmişdir. Azərbaycan çox böhranlardan şərəflə çıxmışdır. Vətəndaş müharibəsi və cəmiyyətin parçalanması təhlükəsindən qurtulmuşdur. İndi Azərbaycanda sabitlikdir, güclü iqtisadiyyat vardır, demokratikləşdirmə yolunda çox işlər görülür. Buna görə də mən qəti əminəm ki, hazırda yeridilən xətt davam etdirilməlidir. İndiki siyasət bir çox onilliklər üçün nəzərdə tutulmuş siyasət olmalıdır. Əks halda Azərbaycan yenə də hansısa hərcmərcliyə məruz qala bilər" ("İzvestiya" qəzeti, 19 may 2001). Prezident İlham Əliyevin bu sözlərində H.Əliyevin mədəniyyət konsepsiyasının formalaşdığı mühit və onun ideoloji zəmini öz ifadəsini tapır.

H.Əliyev fenomenal bir şəxsiyyət, böyük mədəniyyət hamisi idi. Onun rəssamlıq və rəssamlar barəsində söylədikləri böyük fəlsəfi-estetik mahiyyət daşıyan, milli rəssamlıq sənətinin təkamülünə xidmət edən böyük ideyalar idi.

**Ədəbiyyat siyahısı:**


1. Quliyev. V. Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, "Ozan", 1999, s.201
2. Kitabi- Dədə Qorqud ensiklopediyası. I c., Bakı 2000, s.6
3. Əliyev Heydər. Mədəni irsimizin keşiyində. II kitab. Bakı, 2001, s.430
4. Xəlilov. S. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2002, s. 10
5. "İzvestiya" qəzeti, 19 may 2001
6. Məmmədəliyea S. Əhmədov.T. Heydər Əliyev və Azərbaycan mədəniyyəti. Bakı, Nurlar, 2008, 3 c. s. 102

**Айгюль Тофик кызы**
**ГЕЙДАР АЛИЕВ И АЗЕРБАЙДЖАНСКОЕ ИЗОБРАЗИТЕЛЬНОЕ ИСКУССТВО**

**Резюме:** Статья посвящена значимой роли Гейдара Алиева, выдаю- щегося государственного деятеля и лидера Азербайджанской Республики, в развитии современной культуры. Он гордился азербайджанской культурой и внёс существенный вклад в развитие как национального, так и современ-ного искусства.

**Ключевые слова:** культура, искусство, Гейдар Алиев, достижения, деятель искусства, азербайджанское изобразительное искусство.

**Aygul Tofiq qızı**
**HAYDAR ALIYEV AND AZERBAIJANI FINE ART**

**Summary:** Haydar Aliyev was phenomenal person and protector of culture. His ideas regarding art and artists beared deep aesthetic meaning andserved to evolution of national art science.

Haydar Aliyev was proud of Azerbaijani culture and especially art. Haydar Aliyev celebrated Azerbaijani artists` achievements in world and Europe with great joy and pride.

**Key words:** protector, aesthetic, Haydar Aliyev, achievements, Azerbaijanifine arts

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12. 11. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**